# Yeni reallıqlar sülh sazişinin imzalanmasını qaçılmaz edir

***Azərbaycanın ölkəmizə və regiona sülh gətirilməsi istiqamətində atdığı qətiyyətli addımları və əldə olunan uğurları qiymətləndirərkən XX əsrdə ABŞ-da doğulub böyümüş və hüquqi-siyasi baxışlarına görə qətlə yetirilmiş afroamerikan mənşəli ictimai xadim Martin Lüter Kinqin məşhur ifadələrindən biri yada düşür: "Quş kimi uçmağı və balıq kimi üzməyi öyrəndik. Ancaq çox sadə bir sənəti – mehribancasına, dinc yanaşı yaşamağı unutduq".***

Dinc yanaşı yaşamağı bacarmayanlar və ya onu unudanlar təkcə özlərinə deyil, həm də ətrafdakılara problem yaradır, uzunmüddətli qarşıdurmalara və ya münaqişələrə səbəb olurlar. Çox təəssüf ki, bizim regionumuzda da mehriban qonşuluq şəraitində yaşamağı bacarmayanlar var və onların qonşu ölkələr üçün yaratdığı problemi Azərbaycan öz gücünə həll etdi. Nəticədə regionda yeni ictimai-siyasi, diplomatik və iqtisadi reallıqlar yarandı.

Təbii ki, söhbət separatçı, işğalçı, terrorçu, hətta, faşizm dəyərlərini dirçəltməyə çalışan Ermənistan dövlətinin otuz ilə qədər işğal altında saxladığı Azərbaycan torpaqlarından çıxarılmasından və məğlub ölkənin kapitulyasiya aktını imzalamasından gedir. Bu məqamda xüsusilə vurğulayaq ki, əgər Ermənistan Azərbaycanın çağırışlarına, beynəlxalq hüququn prinsiplərinə və BMT başda olmaqla, beynəlxalq təşkilatların qərar və qətnamələrinə əməl etsəydi, yeni münaqişənin sülh danışıqları ilə həllinə razılaşsaydı, onda bu gün regionda tamamilə başqa reallıqlar olardı.

İşğalçı ölkənin rəhbərliyi beş-on il əvvəl "daşı ətəyindən töksəydi" bu gün Ermənistanın adı da inkişaf etməkdə olan ölkələrin sırasında çəkilərdi. Təəssüf ki, bu gün o, iqtisadiyyatı çökmüş, siyasi nüfuzunu itirmiş, ordusu darmadağın edilmiş, əhalisi perik düşmüş, heç bir beynəlxalq layihədə iştirak etməyən, diaspor və lobbinin himayəsindən məhrum olmuş bir dövlətə çevrilmişdir.

Azərbaycan isə beynəlxalq təşkilatlara sədrlik edən, kosmosda rabitə peykləri olan, bütün qurumların ən yüksək səviyyəli tədbirlərinə və ən böyük güc mərkəzlərinin ali səviyyəli dialoqlarına evsahibliyi edən, strateji tərəfdaş və müttəfiqləri ildən-ilə çoxalan nüfuzlu bir dövlətə çevrilmişdir. Bir neçə gün əvvəl Qarabağda və Şərqi Zəngəzurda səfərdə olmuş əcnəbi səyyahlardan biri televiziyaya verdiyi müsahibədə demişdi ki, mən bu ölkələri müqayisə etmək məqsədindən uzağam: "Çünki bu gün Azərbaycanla Ermənistanı müqayisə etmək nəinki mümkün deyil, hətta belə bir müqayisə səhv olardı."

Əcnəbi tamamilə haqlı idi. Çünki bu gün bütün dünya Azərbaycandan və Ermənistandan gələn xəbərlərin fərqinə varmağı bacarır. Bizim uğurlarımız, Ermənistanın isə böhran bataqlığından çıxmaq cəhdləri hamının gözü qabağındadır.

Fikrimizcə, təxminən, 16 ay əvvəl başa çatmış 44 günlük İkinci Qarabağ müharibəsinin Cənubi Qafqazda yaratdığı yeni reallıqların miqyasını göstərmək üçün region mətbuatında son üç-dörd gündə verilmiş bir neçə xəbəri yada salmaq kifayətdir.

Rəsmi mətbuat xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə martın 1-2-də Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyəti işğaldan azad olunmuş ərazilərdə səfərdə olub. Səfər çərçivəsində Füzuli Beynəlxalq Hava Limanına, "Füzuli" yarımstansiyasına, Horadiz – Ağbənd avtomobil və dəmir yollarının tikinti sahəsinə, minatəmizləmə əməliyyatlarına, "Araz Vadisi İqtisadi Zonası"nın Sənaye Parkına, Zəngilan Beynəlxalq Hava Limanının tikintisinə, Zəngilan rayonunun Ağalı kəndinə və s. yerlərə baxış keçirilib. Yekunda Şuşa şəhərində aidiyyəti dövlət qurumlarının rəhbərlərinin iştirakı ilə müşavirə keçirilib.

Ermənistanın Baş naziri Nikol Paşinyan "Ermənistanın diplomatiya günü"nə həsr olunmuş tədbirdə deyib ki, Azərbaycanla sülh sazişi imzalanacaq: "Gündəlikdə regional kommunikasiyaların açılması, Ermənistan – Azərbaycan sərhədinin demarkasiyası, həmçinin Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması məsələləri var".

Baş nazir Əli Əsədov və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin başçılığı ilə aidiyyəti dövlət qurumlarının rəhbər şəxsləri Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin Əlahiddə Sərhəd Diviziyasının xidməti şəraiti ilə tanış olublar.

Ermənistandan verilən xəbər də elə Azərbaycan reallıqlarını göstərir.

Baş nazir Nikol Paşinyan diplomatiya günü və Ermənistanın BMT-yə üzv olmasının 30 illiyinə həsr olunmuş tədbirdə deyib: "Xüsusi nümayəndələr səviyyəsində Ermənistan – Türkiyə dialoqu başlanıb, regional kommunikasiyaların açılması, Ermənistan – Azərbaycan sərhədinin demarkasiyası və delimitasiyası, Azərbaycanla sülh sazişi üzrə danışıqlara başlanması məsələsi gündəmdədir".

Regionun yeni reallıqlarını daim diqqət mərkəzində saxlayan dövlət başçımız ötən il mayın 20-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin videoformatda keçirdiyi "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı müzakirələrdə demişdi ki, İkinci Qarabağ müharibəsi regionda yeni reallıq yaradıb: "Ermənistan dövlətində böhran hökm sürür. Ermənistan özünü regionda həyata keçirilən bütün layihələrdən məhrum edib. İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan Ermənistanın işğal etdiyi torpaqları azad edib. 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra regionda yeni reallıq yaranıb".

> ***Biz öz konstitusion hüquqlarımız çərçivəsində, BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı çərçivəsində yeni reallıq yaratmışıq və hamı bu reallıqla hesablaşmalıdır... Bu gün beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB tərəfindən bu reallıq tamamilə qəbul edilib. Biz bunu həm formal mənada, həm də xalis ünsiyyətdə görürük.***
>
> ***Azərbaycan Prezidenti İlham Əliyevin televiziya kanallarına verdiyi müsahibədən 12 yanvar 2022-ci il***

Azərbaycan Prezidenti xatırladır ki, biz qonşular kimi yanaşı yaşamalıyıq: "Əlbəttə, bu, asan olmayacaq. Bu gün siyasətçilərin rolu sülh və sabitliyin yalnız əməkdaşlıq və təmaslar vasitəsilə mümkün olduğunu insanlara izah etmək olmalıdır".

Həmin çağırış ötən il 15 iyun – Milli Qurtuluş Günündə Şuşadan da səsləndirilmişdi. Bölgədə təsiri olan hər kəsi həqiqətləri görməyə, Azərbaycan xalqının zəfərini qəbul etməyə və gələcəyə baxmağa dəvət edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan vurğulamışdır ki, atəşkəs razılaşmasından sonra artıq bölgədə bütün tərəflər üçün yeni əməkdaşlıq imkanları yaranıb: "Ermənistanın ona xoş niyyətlə uzadılan həmrəylik əlini tutmasını, ortaq gələcəyi birlikdə formalaşdırmaq fürsətindən yaxşı istifadə etməsini arzulayırıq. Altılı platforma dedik. Bu altılı platformada bildiyiniz kimi, Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan və İran var. Bu altılı platforma ilə birlikdə artıq istəyirik ki, bölgə rahatlıqla, sülh içində yaşanan bir bölgə olsun. Bu addımı atmaq üçün biz qardaşımla ( Prezident İlham Əliyev nəzərdə tutulur.– İ.M.) birlikdə hər cür fədakarlığa hazırıq".

Azərbaycanın və Türkiyənin əsas tələbi ondan ibarətdir ki, bölgədəki yeni reallığa fayda vermək istəyən hər kəs nifrət və təhrik siyasətindən əl çəkməli, sülh və əməkdaşlığa öz töhfəsini verməlidir.

Bakı və Ankaranın bu əməkdaşlığa verdiyi töhfələr göz qabağındadır. Ermənistandan gələn son xəbərlər isə bu ölkədə də sülh işartıların olduğundan xəbər verir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 4 mart.- S.3.